*Rafiq MUSA*

## TARİX YAZAN ORDUMUZ

*İctimai TV İTV xəbər verilişinin kövrək ürəkli aparıcısı Jalə Həsənli xanıma*

Bir dünya silkələndi
Səsinin müjdəsinə
Azərbaycan səs verdi
Sənin kövrək səsinə
Sevincindən kövrələn
Mənim qeyrətli qızım
Sən danış qələbədən,
Mən isə dastan yazım.

Bir zaman xəyyallarda
Dərə keçdik, dağ aşdıq
İllərin sevincini
Bu günə saxlamışdıq
O müqəddəs gün gəlib
Biçib tökür dəryazım
Sən danış qələbədən,
Mən isə dastan yazım.

Ilk zəfər nəğməsini
Səsləndirən sən oldun.
Bir elin sevincinə
Şərik oldun, tən oldun.
Arxanda bir ordu var
Kövrəlməyin nə lazım?
Sən danış qələbədən,
Mən isə dastan yazım.

Sancılacaq Şuşaya
Ay-ulduzlu bayrağım.
Yenidən alışacaq
Sönmüş odum-ocağım
Şuşada səslənəcək
Tarım, kamanım, sazım!
Sən danış qələbədən,
Mən isə dastan yazım.

İgidlərin nərəsi
Qələbənin səsidi,
Bu gördüyün toy-büsat
Elin təntənəsidi
Geri dönüb baharım,
Çiçək açır payızım
Sən danış qələbədən
Mən isə dastan yazım.

Torpağa bağlılığım
Qanımızda, gendədi,
Hələ neçə uğurlu
Zəfərlərim öndədi
Tarix yazan orduma
Çatsın, səsim, avazım
Sən danış qələbədən
Mən isə dastan yazım.

## QAZİLƏR EVƏ DÖNÜR

Hər torpağın yiyəsi,
Hər əsgərin öz yeri.
Döyüşə tələsənlər,
İndi qayıdır geri.
Düşmənə yenilməyən
Hər əsgər bir ordudu.
Üçrəngli bayrağını
Canı ilə qorudu.
Bu torpağın yolunda
Vuruşmadan doymadı.
Öz canına qıyanlar,
Vətəninə qıymadı,
Qazilər evə dönür.

Bu da belə bir ömür,
Bu da belə bir yoldu.
Yaralı torpağına,
Qazilər məlhəm oldu.
Çoxları bədənində,
Qəlpə yükü daşıyır.
Amma, xalqın gözündə
Kişi kimi yaşıyır.
Öyünür hər bir qazı,
Şəhidlik zirvəsiylə.
Öz evinə qayıdır,
Qələbə müjdəsiylə,
Qazilər evə dönür.

## MƏNİM ƏSGƏR QARDAŞIM

Zəfər günün mübarək,
Mübarək olsun andın.
Bir alın yazısında
Min bir ömür yaşadın.
Qayalara həkk olub
Öz tarixim, öz yaşım.
Zəfər günün mübarək
Mənim əsgər qardaşım!

Göz dikənlər çox olub
Torpağına, daşına.
Qələbələr yazıbsan
Tarixin yaddaşına.
Düşmən həmin düşməndi,
Nələr çəkməyib başım.
Zəfər günün mübarək,
Mənim əsgər qardaşım!

Torpağın keşiyində
Dayansan da sən hazır,
Bil ki, düşmən oyaqdı,
Məkrlə səngər qazır.
Sən mənim vuran əlim,
Qeyrətli vətən daşım
Zəfər günün mübarək,
Mənim əsgər qardaşım!

Bu gün ağrı-acımı
Ürəyimdən silmisən.
Üçrəngli bayrağımla
Göylərə yüksəlmisən.
Qaranquş müjdəsində
Bahara dönüb qışım.
Zəfər günün mübarək
Mənim əsgər qardaşım!

Sənin əsgər salamın
Tanrının haqq səsidi.
Fəth etdiyin ucalıq
Şəhidlik zirvəsidi.
Sən mənim güc birliyim,
Əsgərim, vətəndaşım.
Zəfər günün mübarək,
Mənim əsgər qardaşım!

Düşmənin düşüncəsi,
Əqidəsi xəstədi.
Önündə dizə çökən
Səndən aman istədi.
Arzularım çin oldu
Səninkidir alqışım.
Zəfər günün mübarək,
Mənim əsgər qardaşım!

Ulduz olan şəhidlər
Göy üzündə sayrışır.
Səninlə fəxr edənlər
Ancaq səndən danışır.
Məhmətcik də soruşur:-
-Nasıldı arkadaşım?
Zəfər günün mübarək,
Mənim əsgər qardaşım!

Sən bilirsən haçandı
Sonuncu dayanacaq
Vətənin bütövlüyü
Son qələbən olacaq!
Sənin hər bir qələbən
Mənim qeyrət savaşım.
Zəfər günün mübarək,
Mənim əsgər qardaşım!

## AZƏRBAYCAN BAYRAĞI

Yüksələn bayrağımız
Göylərdən enməyəcək.
O, günəşdən biçilib
Heç zaman sönməyəcək.
O, xalqımın naxışı,
Bəzəyidi, rəngidi.
Qələbəyə aparan
"Misri"di o, "Cəngi"di
Azərbaycan Bayrağı!

Düşmənə göz dağıdı,
Basılmaz qeyrətimdi.
O sancılan zirvələr
Ən böyük sərvətimdi.
Onunla bir vuruşur
Müqəddəs əsgər andı.
Dönüb şəhid ruhuna
Zirvələrə ucaldı
Azərbaycan Bayrağı!

Onu hər an, hər zaman
Zirvələrdə biz görək.
Dünyanı sikələyən
Zəfərləri mübarək!
Öndə gedir hər zaman
Addımları qətidi.
Millətimin qüruru,
Namusu, qeyrətidi.
Azərbaycan Bayrağ.!

Mənim qalib ordumun
Müqəddəsdir hər andı.
Növbəti dayanacaq
Qərbi Azərbaycandı.
Qarı düşmən görəcək
Gücümüzü bir daha.
Yara-yara zülməti,
Gedir üzü sabaha
Azərbayçan Bayrağı!

## BİZ LAÇINA QAYIDIRIQ

*Laçınlı dostum, 28 saylı Laçın məktəbinin direktoru Nofəl İsmayılovun dilindən*

Ver əlini əlimə,
Qalxaq bizim dağlara.
Düşmənə güc elədik,
Qaysaqlanır hər yara.

Yandındamı o illər,
Laçından düşdük perik?
Şükür olsun Tanrıya
Yurdumuza dönürük.

Bir zaman qarı düşmən
Burda meydan suladı.
Kəkliklərim ötmədi,
Bayquşları uladı.

Daş qoymadı daş üstə,
Qana verdi Laçını.
Buludlar qara geydi,
Dağlar yoldu saçını.

Evlərim viran qalıb,
Ocaqlarım sönübdü.
Hər bir kəndim ağıya,
Bayatıya dönübdü.

...Bu yerlər dağ yeridi,
Ətəyi bağ yeridi.
Laçını viran gördüm,
Üstümə dağ yeridi.

Ağbulağı görmüşük,
Viran qalıb ev, eşik
Havalanıb küləklər,
Yırğalanır boş beşik.

Ev tikdim, qoyub getdim,
Demirəm doyub getdim.
Yaralı Əriklidə
Qəlbimi qoyub getdim.

Bu dağlar, ulu dağlar,
Ətəyi sulu dağlar.
Güləbirdən gələn yox,
Bağlanıb yolu, dağlar.

Əzizinəm sarıya,
Payız düşdü sarıya.
Kimsə yoxdur Bozlunun
Yarasını sarıya.

Kimə deyim dərdimi?
Dərdim əyib qəddimi!
Yerini çox axtardım,
Tapmadım Minəkəndimi.

Əzizim naçar ağlar,
Dərdini açar, ağlar
Daşlını belə görən,
Dağlara qaçar, ağlar.

Meyvəliydi meşəsi,
Qonaqlardı hər kəsi.
Axtarsam da tapmadım,
Hanı Mığıdərəsi?

Hər kəsə deyərdi can,
Beləydi bizim Urcan.
Düşmənə də "can" – dedi,
İndi olub yarımcan.

Dərə keçdim, daş aşdım.
Öz dərdimlə barışdım.
Kamallını tapmadım
Yerini "səhv" salmışdım.

Gəzdim bərəni-bəndi,
Hər tərəf duman, çəndi.
Təzəsi tikilməmiş,
Yıxdılar Köhnə kəndi.

Gör nə düşdü payına,
Top dəydi sarayına.
Kimsə çata bilmədi
Zeyvənin harayına.

Əzizim itən deyil,
Yurd yeri itən deyil.
Kəndlərimin sayı çox,
Saymaqla bitən deyil.

...Bir iş yaratmayanlar
Hər işə əl atdılar.
Dəniz-dəniz deyənlər
Göz yaşında batdılar.

Yaxşı nəsə görəndə
Tamahını saldılar.
Qara göl istəyənlər
Qara günə qaldılar.

Darvazanı bağlayıb
Dal qapını açanlar,
Dünyada rüsvay oldu.
Tumanpaça qaçanlar.

Bundan belə yenə də,
Qapıları döyəcək.
Haylar hardan gəlmişdi
Yenə ora dönəcək.

Düşmən oyundan çıxır,
Dilində düz sözü yox,
Son sözünü deyibdir
Barışmağa üzü yox.

Gördüyünü görübdür.
Çıxmayacaq yadından.
Daha deyə bilmərik,
"Hinger" olub hayastan.

Düşmən elə düşməndir
"Dostunu" da yarıtmaz.
Xoş sözünə inanıb,
Arxa çevirmək olmaz.

Düşmən fürsət gözləyir,
Soyumayıb hələ o.
Bundan belə inanma
Barışığa gələ o.

Düşmən barışsa belə,
Qalsa bir sümük, dəri
Başında gəzdirəcək,
Babası deyənləri.

Tiqranın yalanında
Yazılsa da min dastan
Nə dəniz görəcəklər,
Nə də böyük hayastan.

...Düzəlir yavaş-yavaş
Laçınımın havası.
Burda sərçələrə də,
Vətəndir öz yuvası.

Öz yoluna düşəcək
Bu yerlərin nizamı.
Hər çiçəyin öz rəngi,
Hər bulağın öz tamı.

Şair, qalxaq Kirs dağa,
Ruhumuz təzələnsin.
O şirin xatirələr
Yenidən çözələnsin.

İylə Novruz gülünü
Dizinə gəlsin təpər.
İşdir, başın hərlənsə
Kömək edər Qantəpər.

Dəli dağa söykənək
Gədiklərdən biz aşaq.
Təntiyəndə küləyin
Ətəyindən yapışaq.

İçək Novlu bulaqdan
Sərinlənsin qəlbimiz.
Daşdan çıxan beş bulaq,
Göy üzündən tərtəmiz.

Həsrətini çəkdiyim
Çeşmələrlə öpüşək.
Xəlifə ocağında
Sevgimizi bölüşək.

Bu torpağın hər yeri,
Bir cənnətdir onu bil.
Səlbə çayın tərifi
Dastana sığan deyil.

Minkənd çayın tayı yox
İnan ki, bu dünyada.
Arılar qonaq edər,
Səni Ballı qayada.

Bu dağlar yurd yerimiz,
Ev bizim, ocaq bizim.
Mirəyol mənim meşəm
Miriksudur dənizim.

İnsanı heyran edir,
Şəlalənin gur səsi.
Moruğuyla doludur
Dəyirmanın dərəsi.

Sal qayalar hər kəsin,
Harayına yetəndi.
Bu dağların hər yeri
Bizim doğma Vətəndi.

Burda ahıl babalar
Yüz yaşını aşıbdı.
Ər oğullar ölməyib,
Qayatək daşlaşıbdı.

Qartallar yuva qurur
Qayaların başında.
Sarı aşıq ruhu var
Torpağında, daşında.

Zirvələr Misri qılınc,
Hər qaya bir igid, ər.
Dərələrə söz desən,
Qayalar silkələnər.

...Bir də geri dönməsin
Bəxtimizin təkəri.
Axarına qayıdıb.
Dağlar qızı Həkəri.

Ər oğullar gücünü
Öz yerinə tanıdır.
Laçınlılar evinə,
Ocağına qayıdır.

Yurd yerində yenə də.
Yeni evlər tikilir.
Dədə-baba yurduna
Yeni yollar çəkilir.

Yavaş-yava. Düzəlir
Bu yerlərin nizamı.
Yurd sevənlər sevinir,
Yurduna dönür hamı.

Dünya yiyə durmadı,
Köçkününə qaçqına.
Dünyaya xəbər verin,
Qayıtmışıq Laçına.

Bundan belə sevgimiz,
Olacaq qucaq-qucaq.
Dədə-baba yurdunu
Oğullar qoruyacaq.

Yurd yerimdir Laçınım,
Canımdan əziz canım.
Düşmənə göz dağıdı
Böyük Azərbaycanım.